Ədalət .- 2025.- 20 iyun(№23).- S.13.

VAQİF YUSİFLİ
Filologiya elmləri doktoru

VAQİF ASLAN - 75

”Bu dünya ağ varaq imiş Yazıldıqca söz yeri var” - bu misralar Vaqif Aslanındır. Müasir poeziyamızda onun da özünəməxsus fərdi üslubu, deyim tərzi var və Şəkidə yaşamasına baxmayaraq şeirləri ilə yaşadığı regionun sərhədlərini aşa bilib. ”Bu dünyanın ağ varağına” o da öz şair adını həkk etmək istəyir.

Vaqif Aslanın şeirlərinin özünəməxsus ”xəritəsi” var.Bu xəritə müxtəlif rənglərlə işarələnmiş hissləri, duyğuları əhatə edir. Hər şeydən yazır Vaqif Aslan, şair üçün mövzu məhdudluğu olmamalıdır. Bir daş üstündəki qədim yazı, bir qılınc qəbzəsi, gecənin qaranlığı, səhərin dan yeri, bir qom bənövşə, solğun payız yarpağı, bir dost itkisi, şirin bir yuxu, çörək ətri, ana laylası, torpaq qoxusu

Vaqif Aslan hələ Xarici Dillər institutunda tələbə olanda şair Allahverdi Tağızadə onun şeirlərini başçılıq elədiyi ədəbiyyat dərnəyində dinləmiş, bu şeirlər haqqında ”Bilik” qəzetində yazmışdı ki: ”Vaqifin şeirləri hərarətlidir. Bu şeirlərdə bəzən hisslər pərişanlığı, bəzən dəlisov bir məhəbbət, bəzən də ürək dolusu bir bədii siqlət duyulmaqdadır”.

Ancaq ilk kitabı çapdan çıxanda qırx üç yaşı vardı. Nədən gec gəldi ədəbiyyata? Həgən ədəbiyyata gəlişi ilk kitabla təyin edirlər, halbuki, Vaqif Aslanın 2009-cu ildə çap olunan ”Seçilmiş əsərləri”nin birinci cildində onun 70-ci illərdə yazdığı şeirləri də öz əksini tapır.

Vaqif Aslanın 1993-cü ildə çap olunan ilk kitabının adı ”Aydın” idi. Sənədli, sırf publisistik səciyyəli bu əsər- poema (əslində, mənzum xronika) unudulmaz dilçi-tənqidçi, böyük Azərbaycan ziyalısı, həyatının sonu faciəli qəza ilə bitən millət vəkili Aydın Məmmədova həsr olunmuşdu. Aydın Məmmədovu mən də yaxşı tanıyırdım, tənqidçilik fəaliyyətimiz eyni illərdə başlamışdı və açığını deyim ki, onun dərin zəkası, heyrəiamiz istedadının pərəstişkarlarından biri də mən idim. Onun Milli Məclisdəki çıxışları, iqtidar və müxalifət arasında barışdırıcılıq missiyası yaratmaq səyi hamısını xatırlaya bilərik. Aydın Məmmədov Şəkinin Kiş kəndindən idi, məzarı da ordadır. Hərdən Kiş çayının aşıb-daşmasından, bağları, tarlaları, yolları sellərə qərq etməsindən xəbər gəlir və onda Aydını xatırlayıram. O, müəyyən səbəblərə görə elm aləmindən, ədəbi prosesdən ayrı düşmüşdü. Sonra birdən gəldi, sanki Kiş çayı kimi yerinə-yatağına sığmadı. Amma qəzavü-qədərdənmi, taleyin amansız oyunundanmı yox oldu, getdi. Kiş çayının qarşısı alındığı kimi Aydın da susdu.

Yaşar Qarayevin təbirincə desək, nə qədər ”təsirli bədii lövhələrlə” qələmə alınsa da sənədli-publisistik bir əsər idi. Publisistikanın lirikanı üstələdiyi məqamlar üstünlük təşkil edəndə bədiilik meyarına da xələl gətirir.

Qarşıdakı illərdə isə Vaqif Aslanın bir-birini yarışa çağıran və onun əsl şairlik potensialını üzə çıxaran şeirləri ilə qarşılaşdıq. Uşaqlıq və gənclik illərinin sevgi dolu anları, təbiətin koloritli, bədii təsvir vasitələri ilə cilalanmış gözəl mənzərələri, həyatın sevincli-kədərli səhnələri, tarixi keçmişimizə müraciət bircə-bircə şeirlərinin mövzusuna çevrildi.

Sən ulu babamın yadigarısan,
Səbrin illər yorub, əsrlər yorub.
Nənəmin sehirli nağıllarısan,
Adın cinlər qovub, tilsimlər qırıb.

Bir namərd əlini qoydu döşünə,
Min namərd düşmənə əydi başını.
Sıxıldı babamın dirşi dişinə,
Saxlaya bilmədi o, göz yaşını.

Şeirdə qüvvət və igidlik rəmzi olan qılıncın taleyindən (zəfəri və süqutu) söz açılır. Qəbilin məşhur ”Səhv düşəndə yerimiz” şeirindəki misra yada dü-

şür: ”Qılınc qında pas atıb, qında korşalıb”. Odur ki, şeirin son bəndində qında pas atan qılıncın bir gün şimşək kimi parlamasına ümid doğur:

Matəm paltarındır bu gün, soyun, çıx!
Sinəmin qanıyla silim pasını.
Göynəyən əlimlə bir zərbə çalım,
Doğra, tök Vətənin qəm libasını!

Ümumiyyətlə,Vaqif Aslanın şeir və poemalarında tarixi olaylara tez-tez müraciət olunur. Amma tarix-tarixi hadisələr-tarixi şəxsiyyətlər onun şeir və poemalarında bir məqsədə xidmət edir, o da tarix və müasirlik bağlılığını, keçmiş və bu gün arasında milli-mənəvi körpünü nəzərə çarpdırmaqdır. Onun ”Ruhlarla söhbət” adlı böyük həcmli bir poeması var. Poemada türkün qədim və müasir tarixi vərəqlənir, tariximizin həm acı, həm də şanlı səhzifələri üzərində düşüncələr təqdim edilir. Poemada bu gün bizim üçün maraqlı olan nədir? sualını versək, bu sualın yalnız bir cavabı olar: müasirliyin, çağdaşlığın problemləri tarixi təcrübənin işığında dərk olunur, tarixi yaddaş itməməlidir, tarix təkcə olmuş, bitmiş hadisələrin qaynağı deyil, həm də bu gün və gələcək üçün ibrət dərsləridir.

Dövrün dəyişən ab-havası, cəmiyyətdə baş verən xaos və hərcmərclik, insanların içində baş verən mənəvi dəyişmələr onun bir çox şeirlərində öz əksini tapır. Mühitdə baş verən anti-milli proseslər onun ”Kişilər” şeirində bariz nəzərə çarpır. Keçmişin kişiləri ilə bugunun kişiləri arasında az qala zəminasiman bir fərqin yaranması gözdən qaçmır. ”Köhnə kişilər” düzlük, haqq, ədalət meyarı idilər. Bəs indi?

Getdi özünüzlə zorunuz sizin,
Dolar gözümüzə qorunuz sizin.
Çatdam-çatdam olsun gorunuz sizin,
Daşımız qalmadı daşımız üstə,
Ay yurdu-yuvası talan kişilər!
Olunca dünyada olmasa, yeymiş,
Qalınca dünyada qalmasa yeymiş.
Sizin yerinizdə qalan kişilər!
İndiki kişilər-yalan kişilər!

Vaqif Aslan şeirlərində hərdən özünün də portretini yaratmağa can atır və ironik tərzdə olsa da, özünün timsalında çox həmkarlarının taleyini, ömür yolunu ümumiləşdirir.

Qanadı qırılan quş kimidirsə,
Bahar da gözündə qış kimidirsə,
Yanaqda quruyan yaş kimildirsə,
Bir ayrı ünvana tuş kimidirsə,
Nəyinə gərəkdir bu Vaqif Aslan?

Vaqif Aslanın çoxlu sevgi şeirləri var və deyim ki, bu şeirlərdəki hisslər, duyğular yaşanılan hisslər, duyğulardır. Yalan ha deyil. Amma təbii ki, bu günün sevgi şeirini yazmaq bəlkə də azadlıq haqqında, təbiətin gözəllikləri haqqında, hətta ana haqqında yazmaqdan çox çətindir. Ölçü, meyar o deyil ki, gərək Füzuli kimi yazasan, Ələsgər kimi yazasan, bizim XX əsr şairlərindən Əli Kərim kimi, Bəxtiyar Vahabzadə kimi, Nüsrət Kəsəmənli kimi yazasan. Yox, hər şairin öz sevgi dünyası var. Bu baxımdan Vaqif Aslanın o çoxlu sevgi şeirləri içərisində yaxşı nümunələr az deyil. Onlardan yalnız birini misal gətirəcəyəm və mənim fikrimcə, bu şeir Vaqif Aslanın ən gözəl sevgi şeiridir. Şeirdə parlaq, necə deyərlər, ”göz qamaşdıran” obrazlı ifadələr, orijinal metaforalar, təşbihlər yoxdur, amma bu şeir o qədər səmimidir ki...

Günəşim, dözmədim istinə bəzən,
Amma səni gəzdim üşüyən kimi.
Gördüm duman gəlir üstünə bəzən,
Qalxana çevirdim məhəbbətimi.

Vaqif Aslan haqqında bu yazıda mən onu tənqid də edə bilərdim. Yazardım ki, ithaf şeirlərinin içərisində yararsızları var. Yazardım ki, bəzi şeirləırində adi danışıq tonuna enməsin. Yazmadım, sadəcə dedim. Amma demədim ki, Vaqif Aslanın şeir dili safdı, təmizdi. Hətta mənə zəif görünən şeirlərində ədəbi dilin qanunları pozulmur, folklordan, xalq dilindən gələn ifadələr də şeirlərinə bir şirinlik gətirir. Yazmadım, sadəcə dedim. Vəssalam, şüttamam!

SON SÖZ: Əziz dostum və adaşım. Sənin 75 yaşını ürəkdən təbrik edirəm. Sən yaşca cavan deyilsən, elə mənim kimi qocasan amma şeirlərin qocalmır.